ADAU-nun ELMİ ƏSƏRLƏRİ

ISSN 2310-4104 E-ISSN 2790-5799

DOI:10.30546/2790-5799.2.2024.1017.

UOT: **61.55:513.71**

# FERMER TƏSƏRRÜFATLARINDA AQROSERVİSLƏRİN QURULUŞUNUN İQTİSADİ-RİYAZİ MODDELLƏŞMƏSİ

Səməd Nürəddin oğlu Yusifov [1], Şəlalə Nürəddin qızı Nəbiyeva[2], Təranə Eyyub qızı Əliyeva[3], Fəxriyyə Ələddin qızı İbrahimova[4]

## XÜLASƏ

**Tədqiqatın məqsədi –** Fermer təsərrüfatlarında maşın mexanizmlərinin optimal səviyyədə istifadə qaydaları, yeni innovativ texnologiyaların tətbiqi imkanlarının araşdırılmasıdır.

**Tədqiqatın metedologiyası** – Məqalədə aqrar istehsalın həcminin artırılmasında texnikadan səmərəli istifadə yolları araşdırılır. Bunun üçün ilk növbədə texnikadan səmərəli istifadəsi nəzərdən keçirilmiş, maşın mexanizmlərinin hazırki vəziyyətinin qısa səciyyəsi verilmişdir.

**Tədqiqatın tədbiqi əhəmiyyəti** - Əkinçilik sahələrinin inkişafında texnikanın böyük rolu vardır. Tədqiqatlar göstərir ki, hazırda müasir innovativ texnikalardan geniş istifadə olunur.

**Tədqiqatın nəticələri** - Aparılan təhlildən aydın olur ki, əkinçilik sahəsindən əldə edilən gəlirin səviyyəsi mövcud potensialdan aşağı olaraq, dövrün tələblərinə cavab vermir. Texnikadan səmərəli istifadə etməklə yanaşı gəlirləri artırmaq üçün kompleks tədbirlər sisteminin hazırlanıb həyata keçirilməsindən ibarətdir. Kənd təsərrüfatı məhsul istehsalının strukturu perspektiv sayıla bilməz və kənd təsərrüfatında iqtisadi inkişafı yüksəltmək qabiliyyətində deyil.

**Tədqiqatın elmi yeniliyi** - Müasir şəraitdə ölkənin kənd təsərrüfatında yeni innovativ texnikalardan istifadə və bu istifadənin iqtisadi səmərəliliyi yollarına baxılaraq, bu istiqamətdə müvafiq tövsiyyə və təkliflər irəli sürülmüşdür.

**Açar sözlər**: innovativ texnologiya, iqdisadi səmərə, kompleks tədbirlər, lizinq, aqrotexservis.

## Giriş.

Ölkənin yeni iqdisadi sistemə keçməsi, kənd təsərrüfatının bazar iqdiadiyyatına uyğun olaraq yenidən qurulması, yeni təsərrüfatcılıq formalarının inkişaf etdirilməsi başqa sahələrdə olduğu kimi texnikadan səmərəli istifadə və onun mühafizəsi ilə bağlı münasibətləri yeni iqtisadi şəraitlə uyğunlaşdırmaq üçün yeni qanunveriçilik bazasının yaradılması və uyğun olaraq yeni hüquqi vəzifələrin qəbul edilməsi meydana çıxır.Bu zərurəti nəzərə alaraq ölkədə texnikadan istifadənin və xeyli vaxtdır “Aqroservis ASC” – lərin fəaliyyət sayəsində irəliləyiş əldə olunması nəzərə çarpaçaq səviyyədə irəliləyişin olması inkişafdan xəbər verir. (AR 2022-2026 İnkişaf Strategiyası, 2022; Azərbaycan 2030 Milli Prioritetlər, 2021). Aqrar sahə üzrə göstərilən çatışmazlıqları fermer təsərrüfatlarında maddi-texniki bazanın genişləməsinə ehtiyac duyulur. Kənd təsərrüfatı məhsulları istehsalı prosesi onun əsas istehsal potensial elementləri olan torpaq resursları, əsas dövriyyə fondları, əmək resurslarının mürəkkəb – qarşılıqlı əlaqəsi şəraitində həyata keçirilir. Ümumi xarakterik cəhət ondan ibarətdir ki, mövcud maşın parkı istehsalatlardan sonra formalaşmış və formalaşmaqda olan aqrar sahənin tələblərinə, miqdar tərkibinə, maşın – traktor parkının strukturuna, texniki və texnoloji səviyyəsinə, parka tərkibində saz maşınların sayına görə hələlik tam cavab verəcək şəkildə deyildir. Yeni texnikaların istehsalat prosesinə daxil olma tempi olan texnikanın siyahıdan çıxılma tempindən aşağıdır Kənd təsərrüfatı istehsalçılarının əsas texnika növləri üzrə 2022-ci ildə traktorlar üzrə 52%, kotonlar üzrə 37%, kultivatorlar üzrə 60%, səpin maşınları üzrə 59%, kombaynlar üzrə 51% olmuşdur. Ümumilikdə hələlik kənd təsərrüfatında əməyin enerji

[1]Əsas müəllif/Correponding author: Azərbaycan Dövlət Aqrar Universiteti, Gəncə şəhəri, yusifov_samed@mail.ru
[2] Azərbaycan Dövlət Aqrar Universiteti, elekberlimehemmed@mail.ru
[3] Azərbaycan Dövlət Aqrar Universiteti, terane.aliyeva64@bk.ru
[4]Azərbaycan Dövlət Aqrar Universiteti, abdullayevafexriyye23@gmail.com

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1017.

silahlarına dərəcəsini qənaətbəxş etmək olmaz. Maşın – traktor parkının istifadə səviyyəsi həmişə olduğu kimi bu gün də yüksək səviyyədə mexanikləşdirilmiş kənd təsərrüfatı istehsalının səmərəli idarə olunmasının vacib göstəricisi sayılır. Texnikadan istifadə səviyyəsi hər hansı təsərrüfatın tələb olunan miqdarda məhsul istehsal etmək qabilliyyətini və yüksək gəlirliliyini nümayiş etdirir. Məlumdur ki, parkdan istifadənin qiymətləndirmə kriteriyaları növbəlik mövsümlük və illik iş həcmi, həmçinin mexanikləşdirilmiş və servis işlərinə maliyyə xərcləri və yanacaq sərfindən ibarətdir. İnkişaf etmiş ölkələrdə xüsusilə Rusiya Federasiyasında son illər bəzi təsərrüfatların yaratdıqları maşın – traktor parkının sayının azalması müşahidə olunmuşdur. Buna baxmayaraq tarlaçılıqda iş həcmi və aqrotexniki müddətlər, digər istehsal sahələri praktik olaraq dəyişməz qalmışdır. Belə vəziyyətdə mövcud maşın – traktor parklarının çatışmazlığı onların adekvat olaraq yükünün artırılması ilə kompensasiya olunurlar (İsgəndərov və b., 2017).

Bu gün kənd təsərrüfatı texnikası qıtlığı hiss olunmur.Bu baxımdan respublikamızda əsas traktor istehsalçısı olan “Gəncə Avtomobil zavodu” istehsalat birliyi bu iqtisadi rayonda yerləşir. Zavod bu gün fermerləri Belarus istehsalı olan MTZ-89,2 və MTZ-1221 markalı traktorlarla təmin edir.Bu baxımdan hazırki vaxtda texnika qıtlığı hiss olunmur.

Regionda aqrar istehsalın artırılması “Aqrolizinq” ASC-nin Aqroservis filiallarının fəaliyyətinin daha səmərəli təşkilinə ehtiyac var.Bütün bunlar bu sistemin təkmilləşdirilməsini öz fəaliyyəti ilə kənd təsərrüfatı məhsulları istehsalçılarını iqtisadi cəhətdən maraqlandırmağa yönəltməsinə şərait yaratmış olar.Aqroservis müəssisəsinin fondyaradan sahələr və maddi-texniki vasitə hazırlayan (Xüsusilə Gəncə Avtomobil zavodu və Zəyəm texnoparkı ilə) müəssisələr arasında korrelyasion əlaqələrin inkişafı,maşın-tarktor parkında olan texnikaların səmərəli istifadə olunmasının təmin edilməsi, kənd təsərrüfatı subyektləri ilə istehsal-maliyyə münasibətlərinin optimallaşdırılması ön plana çəkilmişdir (Zangiyev və b., 2008). Məhz bu yolla məhsulun maya dəyərinin aşağı düşməsinə də şərait yaranmış olar. Regionun əkinçilik xüsusiyyətlərini nəzərə alaraq texnikada səmərəli istifadə etmək isə elmi cəhətdən əsaslandırılmış təşkilatı-texnoloji tədbirlərin həyata keçirilməsini tələb edir.Avropada mexanikləşdirməyə təhrik edilən xidmət sahələrinin ərazidə səmərəli fəaliyyətinin təşkili əsasən kütləvi xidmət nəzəriyyəsinə və riyazi modelləşdirmə tələblərinə əsaslanmışdır.Ancaq işlənmiş variantlar dəyişən iqtisadi-təşkilati və regional struktur və təsərrüfatçılıq xüsusiyyətləri nəzərə ala bilmədiyindən tətbiq tapa bilməmişdir. Bütün bunlar kənd təsərrüfatı sahəsinin inkişafı ilə əlaqədar elmi mahiyyətli ciddi problemin olduğunu göstərir.

Dünya təcrübəsinə əsaslanaraq qeyd edilməlidir ki, Aqrotexservis sistemində mühəndis texniki xidmətin, o cümlədən kənd təsərrüfatı texnikasından istifadənin optimallaşdırılması şəraitində ərazidə yerləşən kənd təsərrüfatının texniki-təminatının səmərəliliyini artırmaq mümkündür. Bununla belə “Aqrotexservis” müəssisələrinin strateji xarakter daşımasına baxmayaraq bunların mükəmməl forma alması yeni texnika əldə edilməsinə bəzi maliyyə çətinliklərinin olması,maliyyə-kredit sisteminin kifayət dərəcədə inkişaf tapmaması,investrlərin olmaması,kənd təsərrüfatı istehsalının səmərəliliyinin aşağı olması,istehsal olunan məhsullarının qiyməti ilə müqayisədə bütün resurs növlərinin qabaqlayıcı qiymət artımına malik olması səbəbindən olduqca ləng gedir.Bu səbəblər sırasına eyni zamanda regionun xüsusiyyətləri ilə əlaqəli torpaq qoruyucu ,enerji qoruyucu və digər innovasiyalı texnologiyaların diqqətdən kənarda qalmamasını da əlavə etmək məqsədəuyğundur. Odur ki, əksər iqtisadi bölgələrdə,xüsusilə özünəməxsus coğrafi mövqeyə malik dağətəyi bölgələrdə fəaliyyət göstərən Aqroservis müəssisələri öz strukturlarında optimal tərkibli maşın-traktor parkının olmaması,həmçinin bəzi hallarda güclü və səmərəliliyi ilə xarakterizə olunmalıdır.

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1017.

**Materiallar və metodlar.** Hazır ki, vaxtda ərazi xüsusiyyətləri, resurs və torpaq qoruyucu texnologiya və texniki vasitələrin tətbiqi, istehsal və texniki istismarın təkmilləşdirilməsi, parkın tərkibinin optimallaşdırılması nəzərə alınmaqla elmi əsaslara söykənən tövsiyyələr kifayət qədər işlənməmişdir. Bu baxımdan xarakterik bölgə ərazi – iqtisadi xüsusiyyətlərin və mühəndis – texniki təminat üzrə respublikada inteqrator rolunu üzərinə götürmüş "Aqrolizinq" ASC-nin rayon filiallarının fəaliyyətinin öyrənilməsi olduqca vacibdir. Son dövrdə respublikanın 61 rayonunda "Aqrolizinq" ASC-nin nəzdində Aqroparklar yaradılmışdır ki, bunlar da istehsal prosesini artırmağa xidmət edir. Həmin qurumlar və təsərrüfatları, kiçik müəssisələr, kiçik firmalar habelə sərbəst peşə sahibləri yararlanırlar.

**Nəticələr və müzakirə.** Kənd təsərrüfatının texniki təchizatının genişləndirilməsi ilə əlaqədər olaraq aqrotexservis variantlarından səmərəli istifadə məsələsinin həlli meydana çıxır. Kiçik kəndlər fermer təsərrüfatlarına lazım olan növlər üzrə kənd təsərrüfat maşınlarının (əkin, beçərmə, biçin aqreqatları) miqdarını və tiplərini planlı qaydada hesablamaq zərurəti yaranır.

Qeyd etmək lazımdır ki, operativ planlaşdırma zamanı konkret dəstənin optimal miqdar tərkibi yuxarıda göstərilən amillər əsasında daim dəyişən kəmiyyətdir. Ancaq qarşıya qoyulmuş məqsəd mexanikləşdirilnmiş dəstənin maşın-traktor parkının perspektiv üçün tərkibinin müəyyən edilməsin-dən ibarətdir. Bu zaman hesabat orta kəmiyyətlər (sürümün uzunluğu, daşınma məsafəsi, məhsuldarlıq və s.) üzrə yerinə yetirilməlidir. Odur ki, perspektivə yuxarıda qeyd olunan amillər nəzərə alınmaqla yeni yaradılan mexanikləşdiril-miş dəstələrin dəstləşməsini həyata keçirmək və mövcudlarınçatmayan avadanlıqlarını yerinə qoymaqla onları tamamlamaq üçün aqrotexservis müəssisəsinin mexanikləşdirilmiş dəstəsinin maşın-traktor parkının optimal tərkibinin iqtisadi-riyazi modelinin qurulması tələb olunur (Respublika qəzeti, 2014).

İqtisadi-riyazi modelin strukturunu nəzərdən keçirək.Burada optimallaş-dırma kriteriyası kimi gətirilmiş xərclər seçilə bilər (Араев, 1978). Bu parametr həm cari xərcləri, həm də sərmayə qoyuluşunun səmərəlilik göstəricisini nəzərə alır. Bununla əlaqədar bu məsələnin məqsədli funksiyasını aşağıdakı kimi yazmaq olar:

$$Z_{min} = \sum C_{ijt} \cdot X_{ijt}, \qquad (1)$$

burada: $i$ – dəyişənin (aqreqat və maşınlar kompleksi) nömrəsi;
$j$ - əməliyyatın nömrəsi;
$t$ – aqrar müddətin nömrəsi;
$C_{ijt}$– aqreqat (maşınlar kompleksi) üzrə i-növ işdə t – aqrar dövrdə gətirilmiş xərclər, man.
$X_{ijt}$- t – aqrar dövrdə j – iş növündə i – tipli aqreqatların (maşınlar kompleksinin) miqdarı.

Məqsədli funksiyanın minimumuna aşağıdakı şərtləri həyata keçirməklə nail olmaq lazımdır:

1.Aqrotexniki müddətlərə uyğun olaraq müəyyən edilmiş aqrar dövrlərdə növlər üzrə planlaşdırılmış iş həcminin yerinə yetirilməsi. Burada yeni yaradılan mexanikləşdirilmiş dəstənin maşın-traktor parkının optimal tərkibi müəyyən edildikdə bu şərt aşağıdakı şəkildə ifadə olunur:

$$W_{ijt} \cdot X_{ijt} \geq U_{jt} \qquad (2)$$

burada: $W_{ijt}$– t – aqrar dövrdə j – iş növündə i – tipli aqreqatın (maşınlar kompleksinin) məhsuldarlığı;

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1017.

$U_{jt}$ – aqrotexniki müddətlərə uyğun olaraq t-aqrar dövrdə j – növ mexanikləşdirilmiş işin planlaşdırılmış həcmi.

Artıq mövcud olan dəstənin komplektləşməsini tamamladıqda şərt aşağıdakı kimi olur:

$$W_{ijt} \cdot X_{ijt} + B_{jt} \geq U_{jt}, \qquad (3)$$

burada: $B_{jt}$ - t - hesabat aqrar dövrdə artıq mövcud olan mexanikləşdirilmiş dəstənin müvafiq texnoloji mənası tərəfindən yerinə yetirilə bilən j -əməliyyatının iş həcmi.

Müasir kənd təsərrüfat maşınları istehsal texnologiyasının artırılması üçün əməliyyatlarda müxtəlif məhsuldarlıqla işləyə bilirlər. Həmçinin əməliyyatların müxtəlifliyi və təbii istehsal şəraiti kənd təsərrüfat texnikasında çoxlu sayda maşınların olması və onlardan istifadə etmək zərurəti yaradır. Belə olan halda kəndli fermer təsərrüfatlarından, istehsal kooperativlərində maşın və traktorlarının sayının növlər üzrə aktarılması məsələsində müxtəlif sayda məsələlərin seçilməsi mümükündür. Kənd təsərrüfat texnikasından səmərəli istifadə hər bir konkret fermer təsərrüfatın istehsal xüsusiyyətindən asılı olaraq texnikaya tələbatın və aqrotexservislərin quruluşunun düzgün planlaşdırılması vacib şərtlərdən hesab olunmalıdır (Zangiyev və b., 2008).

Kənd təsərrüfatında istehsal proseslərinin mexanikləşdirilməsi ilə gedən işlərin xərcləri artdığından (yanacaq, aqrotexniki yağları) istehsal olunan məhsulun maya dəyəri artır.

Hesablamalarımıza əsasən göstərə bilərik ki, iqtisadi – riyazi üsullarda və EHM-dən istifadə edərək fermer təsərrüfatlarında müəyyən dövr ərzində il ərzində becərmə mövsümü işlərdə lazım olan texnikanın sayı və növlərini kifayət qədər dəqiqliklə müəyyən edilir. Müxtəlif növ kənd təsərrüfatı texnikasını kənd təsərrüfat işlərinə görə elə planlaşdırmaq lazımdır ki, görülmüş işlərə sərf olunan xərclər minimum olsun. Bu cür məsələnin qoyuluşu və həll edilməsinin çətinliyi ondan ibarətdir ki, dağ və dağətəyi fermer təsərrüfatlarınıda əkin sahələrinin kiçikliyi, çox maniəli və eniş – yoxuş olmasındadır.

Kənd təsərrüfatının istehsal texnologiyası proseslərini zaman koordinatlarında ifadə etməyə imkan verir. Fermer təsərrüfatında nə qədər ki, məhsul istehsalının texnoloji prosesinin konkret yığımlarını zamana görə xüsusi dövrlərə ayırmaq olar.

Bu dövrlərdə elə vaxt müəyyənləşdirilir ki, işlər ardıcıl və səmərəli yerinə yetirilir.

Fermer təsərrüfatlarında istehsalın kompleks mexanikləşdirilməsinə imkan verən maşın – traktor parkından istifadənin optimalaşdırma məsələsini həll etmək üçün ən əlverişli kriteri kimi traktorlarını və kənd təsərrüfatı avadanlıqlarının sayı göstərilə bilər (http // agrolizing.gov/az/menu/) Traktor və başqa mexanizmlər ümumiləşdirilmiş kriteri hesab olunur. Traktor və kənd təsərrüfatı maşınlarının sayı ümumiləşdirilmiş kriteridir. Bu kriterilərin minimum qiymətinə digər traktor parkı ən az əmək sərf etməklə kənd təsərrüfatının kompleks mexanikləşdirilməsinə, avadanlıqlarının daha səmərəli işlənməsinə nail olunur (Musayev, 1973).

Müasir fermer təsərrüfatlarında maşın – traktor parkının yaxud aqrotexservislərin quruluşunun tapılması üçün iqtisadi riyazi model qurmaq olar.

$$\sum_{j=1}^{n} a_{ijl}\, x_{ijl} = b_{ij} \qquad (i, j, l = \overline{1n}) \qquad (4)$$

T hesablama dövründə aqrotexniki həcmdə tələb olunan işlərin görülməsi üçün Maşın Traktor Parkında və aqrotexservislərdə olan texnika və avadanlıqlarla təmin olmanı göstərir.

burada

$x_j$- j-cu növ traktorların sayı

$x_{ijl}$- l-ci dövrdə i-ci işdə istifadə oluna bilən j növ traktorların sayı

ISSN 2310-4104 E-ISSN 2790-5799
DOI:10.30546/2790-5799.2.2024.1017.

$a_{ijl}$- l-ci dövrdə i növ iş üçün j növ traktorun maşınla aqreqatlaşmış şəkildə alınan məhsuldarlıq
$b_{il}$- l dövründə i növ maşınların miqdarı

$$\sum_{i=1}^{mj} x_{ijl} \leq x_j \qquad x_j \geq 0 \qquad (5)$$

Traktorların ümumi sayı təsərrüfatda olan traktorların sayından çox olmamasını göstərir və məchullarının yüksək olmaması şərtini göstərir.

**Yekun nəticə.** Göstərdiyim iqtisadi riyazi model Respublikanın Qazax - Tovuz bölgəsinin aran dağ ətəyi və dağ təsərrüfatlarında fermerlərin indiki maddi texniki təminat məsələləri onlardakı işin həcmi və aqrotexnoloji proseslərin strukturu nəzərdə tutulmuşdur. Bununla əlaqədar olaraq qeyd etmək olar ki, spesifik torpaq-iqlim şəraitinə malik iqtisadi regionda fəaliyyət göstərən Aqrotexservis müəssisəsində maşın-traktor parkının istehsalat və texniki istismar sisteminin təkmilləşdirilməsi və resursqoruyucu texnika tətbiqi ilə maşınlardan istifadənin yaxşılaşdırılması olduqca aktualdır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı. 2021.
2. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı 2022
3. Зангиев А.А. Эксплуатация машинно-трактор-ного парка. /А.А. Зангиев, А.В.Шпилко, А.Г. Левшин. - М.: «Колос». - 2008, - 320 с.
4. “Aqrolizinq” ASC kəndin müasir texnikalarla təminatçısıdır / Respublika qəzeti 2014 22 aprel s.2
5. B.Musayev. Planlaşdırmanın riyazi üsulları və modeləri. Bakı 1973.
6. A.D.İsgəndərov R.Q.Tağıyev Q.Y.Yaqubov "Optimallaşdırılma üsulları BDY nəşriyyatı Bakı 1993
7. Ana səhifə Aqrolizing 2017. URL : http // agrolizing.gov/az/menu/
8. Агаев Л.Е. Основы расчета оптимальных и допускаемых режимов работы машино-тракторных агрегатов. / Л.Е.Агаев. -Л.: Колос. – 1978. - 296 с.

## ECONOMIC-MATHEMATICAL MODELING OF THE STRUCTURE OF AGROSERVICES ON FARMS

## SUMMARY

**The purpose of the research -** to examine the feasibility of using new creative technologies and standards for the most efficient use of machine mechanisms in farms.
**The methodology of the research -** The paper delves into the most effective ways to employ equipment to boost agricultural production volume. First, the technique's effectiveness was assessed, followed by a brief overview of the current status of machine mechanics.
**The practical importance of the research -** Agriculture's development depends heavily on technology. According to studies, they are currently commonly used in modern revolutionary technologies.
**The results of the research -** According to the findings, agricultural income falls short of its potential and fails to fulfill present needs. One of the primary responsibilities in resolving this problem, in addition to making good use of technology, is to establish and implement a system of sophisticated measures to boost income. The structure of agricultural product production is not promising and does not contribute to agriculture's economic development.

**The scientific novelty of research -** Relevant recommendations and proposals were made in this regard, taking into account the employment of new inventive techniques in the country's agriculture under modern conditions, as well as the economic effectiveness of this use.
**Keywords:** innovative technology, economic efficiency, complex measures, leasing, agrotechservice

## ЭКОНОМИКО-МАТЕМАТИЧЕСКОЕ МОДЕЛИРОВАНИЕ СТРУКТУРЫ АГРОСЕРВИСОВ НА ФЕРМЕРСКИХ ХОЗЯЙСТВАХ

### РЕЗЮМЕ

**Цель исследования -** исследование правил оптимального использования механизмов машин на фермерских хозяйствах, а также возможностей применения новых инновационных технологий.
**Методология исследования -** В статье исследуются пути эффективного использования техники в целях повышения объёма аграрного производства. Для этого в первую очередь, было рассмотрено эффективное использование техники, дана короткая характеристика нынешнего состояния машинных механизмов.
**Практическая значимость исследования –** Техника играет большую роль в развитии земледелия. Исследования показывают что, в настоящее время широко пользуются современными инновационными технологиями.
**Результаты исследования –** из проведенного исследования ясно, что уровень доходов от земледелия ниже существующего потенциала и не отвечает нынешним требованиям. Одна из главных задач на пути решения данной проблемы наряду с эффективным использованием техники, разработка и применение системы комплексных мероприятий в целях повышения доходов. Структура производства сельскохозяйственной продукции не является перспективной и не способствует экономическому развитию сельского хозяйства.
**Научная новизна исследования –** рассматривая использование новых инновационных техник в сельском хозяйстве страны в современных условиях и пути экономической эффективности данного использования, были выдвинуты соответствующие рекомендации и предложения в этом направлении.
**Ключевые слова:** инновационная технология, экономическая эффективность, комплексные меры, лизинг, агротехсервис

*Məqalə daxil olmuşdur: 10.06.2024*
*Təkrar işləməyə göndərilmişdir: 14.06.2024*
*Çapa qəbul edilmişdir: 25.06.2024*

*Дата поступления статьи в редакцию: 10.06.2024*
*Отправлено на повторную обработку: 14.06.2024*
*Принято к печати: 25.06.2024*

*The date of the admission of the article to the editorial office: 10.06.2024*
*Send for reprocessing: 14.06.2024*
*Accepted for publication: 25.06.2024*